*Kövrək adamıq biz, millətcə himə bəndik. Ortaq bir sevgimiz var, adı Azərbaycandı. Onu sayanın, sevənin də gözümüzün, könlümüzün üstündə yeri var.*

*Mənim də eləcə. İşim ürəyində Azərbaycan olanları tapmaq, o sevginin kökünü araşdırmaqdı. İstər sənət adamı, istər siyasətçi, fərqi yoxdur, fəaliyyətində ölkəmin adı varsa onun da mənim müsahibələrimdə yeri var.*

*Murat Serezli! Türk əsgərinin qoluna, tamaşaçısının da bağrına Azərbaycan bayrağını basan məşhur Kopuz Albay müsahibimdir:*



# Bakıya vuruldum

## Kopuz Albay: *“İnsan oğlu dünyaya gələndən bəri təsdiqlənmək, qiymətəndirilmək istəyir”*

**- Bakıya xoş gəlmisiniz, Albayım. Necəsiniz?**

- “Yahşıyam, siz necəsiniz? (gülür)

**- Türkiyədən Azərbaycana gələnlər deyirlər, “burası aslında bizimmiş, amma haberimiz yokmuş”.**

- Yox, mənim xəbərim vardı, sadəcə bu qədər gözəl olduğunu bilmirdim. Azərbaycanı yaxşı tanıyıram, qardaşlığımızı, bayrağımızı, tarixindəki sevincli və hüznlü anları, “qardaş qardaşa borc verməz” məsələsini... Amma arxitekturası, teatrları, restavrasiya edilmiş incəsənət ocaqları, Türk şəhidliyi, Fəxri Xiyaban, tarixi daş binaların arasında inanılmaz müasir üslubda inşa edilmiş binalar, Heydər Əliyev Mərkəzi, eləcə də onun memarlığı haqqında bu qədər geniş məlumatım yoxuydu. Deməli, gəlib görmək lazımıymış ki, yaddaşıma əbədi həkk olunsun. Bu mədəniyyət, bu dil və din eyniliyi, ancaq gəlib gördüyün, toxunduğun zaman insanda qalıcı olur. Ensiklopediyalardan, internetdən əldə elədiyin məlumatlarla, bu küçələrdə yerimək, bu havanı ciyərlərinə çəkmək, buranın insanlarıyla gözgözə gəlmək eyni şey deyil. Mən Bakıya vuruldum.

**- İlk gəlişinizdirmi?**

- Bəli. “Məlahətli qonaqlar” verilişinə, Məlahət xanım Abbasovaya bu gəlişə vəsilə olduğu üçün xüsusi təşəkkür edirəm.

**- Sizi Azərbaycan tamaşaçısına filmlərinizdəki, seriallardakı rollarınız tanıtdı, amma “Savaşçı” bu sevginin kulminasiya nöqtəsi oldu...**

- Xüsusilə də serialımızın üçüncü sezonunda Azərbaycan məsələlərinə də toxunduğumuz üçün Azərbaycan tamaşaçısı bizi daha çox sevdi. Serialımızın üçüncü sezonunda Kənan Mahmudovun rolu və Qılınc batalyonunun yaradılması bu məsələləri aktuallaşdırdı. Kənan Mahmudov, serialdakı Bəxtiyar yüzbaşı, Qılınc batalyonuna rəhbərlik edirdi. Deyə bilmərəm ki, məhz bu məsələ üçün bu rolu qəbul eləmişəm, xeyr, bu qürur təkcə mənə aid deyil. Kənanın bizə qoşulduğu seriya qırx doqquzuydu, biz yetmiş altıda bitirdik. Ondan əvvəl bu məsələ yoxuydu, daha sonra ssenaristin və təşkilatçının da istəyilə serial bu istiqamətə doğru dəyişdi. Bundan sonra mən də bu barədə daha dərindən məlumatlar əldə eləməyə başladım.

**- Bəs bu sizin ürəyinizcə oldumu?**

- Əlbəttə. O səhnə yadınızdadır yəqin, əsgərlərə qolunuza başqa dövlətlərin bayrağını taxarsınızmı, deyə soruşdum, yox cavabı verdilər. Azərbaycan bayrağı deyəndə, hamısı hə, dedi, çünki o da bizim bayraqdı, dedilər. Bizim! Biz qəhrəman Mübarizi iki seriya türk tamaşaçısına anlatdıq. Sənətçiniz Azərinin bir ordu gecəsində “Çırpınırdı Qara dəniz” oxumağı, Qarabağ mövzusu, bu məsələlərdə araşdırma da apardığım üçün mənim özümün də bu məsələlərdə məlumatımı genişəndirdi.

**- Murat bəy, oyunçuluq nədir? Oynamaqmı, yaşamaqmı?**

- Çox çətin sualdır. Bu sualın cavabına kitab yazmaq olar. Qısaca olaraq dünyanın ən asan, həm də ən çətin sənətidir.

**- Niyə? Yaxşı oynamaq saxtakarlıqdımı?**

- Mövzunu başqa yerə çəkmə. Bax, Nigar, aktyorluq, dayan dedikləri yerdə dayan, sözünü de qədər asan amma ömrün boyu cəhd eləsən də heç vaxt bütünlüyü ilə öyrənə bilməyəcəyin qədər də çətin sənətdir. Oynamaq onu qəlbində, ürəyində hiss edib, nəhayətində nə qədər hiss edərsən et, “mış” kimi olmaqdır. Heç vaxt həqiqət ola bilməz, amma oynamaq deyil olmaqdır, mənim hədəfim. Sənə diktə edilənı, öyrədiləni yox, o xarakterin duyğusunu, ruhunu, əhvalını hiss edib, onun kimi davranıb, o olsa nə edərdi düşüncəsini öz mimikan və jestlərinlə ifadə etmək, ruhundan yeni formada təqdim etməkdir. Bir mahnını iki ifaçı eyni formada oxuya bilərmi? Xeyr. Notlar eynidir, amma səs, görüntü, mimika, jest eyni deyil, özünəməxsusluq var. Plastikanı dəyişdirə bilməzsən, qısaboy adamsansa uzun adamı oynaya bilməzsən. Olaraq oynamaqdır bütün məsələ. Hərəkətləri təkrarlasan süni alınacaq. Varlı adam belə yeriyir, kasıb belə. Xeyr, bəli əyilmiş varlı adam, dik yürüyən kasıb adam da var. O standartlardan kənarda, ruhunun eləyindən keçirib, duyğu və hisslərini ifadə elədiyin zaman ortaya əla bir performans çıxır. Təqlid olmalıdır, amma özünü də unutmamalsan.

**- Buna görəmi aktryorların çoxu eyni rolu illərlə oynamaqdan çəkinirlər?**

- Həm buna görə, həm də yelpazələrinin geniş olduğunu göstərmək istəyirlər. Aktyor acgözdür, yeni rollar oynamaq, özünü təzələmək ehtiyacı hiss edir. Özünü təkrarı sevmir, əgər belə olsaydı, fabrik işçisi ya da məmur olardı. O ki, qaldı, rola, seçim hər zaman onundur. Bu gün qəhrəmanı oynayır, sabah qatili. Və beləcə dünyaya hayqırmaq istəyir, baxın mən necə gözəl aktyoram, hər rolun öhdəsindən məharətlə gəlirəm. Qəhrəmanı da oynadım qatili də. Əslində, oyunçu bu məsləkdəki fərqliliklərə aşiqdir.

**- Sevilmək necə duyğudur?**

- Qürurverici, şərəf verici! İnsan oğlu dünyaya gələndən bəri təsdiqlənmək, qiymətəndirilmək istəyir. Kimisi bu hissi məsləyinə də daşıyır, puldan və şöhrətdən əvvəl alqışdır, onun üçün əsas olan. Təqdirdir.

**- Öhdəsindən gələ bilmədiyiniz bir rolunuz olubmu?**

- Yəqin ki, olub. İndi keçmişə qayıdıb sözün həqiqi mənasında bax bu rolun öhdəsindən gələ bilmədim, deyə bilmərəm, çünki filmin uğurlu və ya uğursuz olmağı aktyorun bacarıqsızlığı deyil. Müxtəlif səbəblər var. Kimsə bu günə qədər “Murad rolunun öhdəsindən gələ bilməyib” demədi.

**- Bir türk aktyor üçün Türkiyədə oynamaq daha asandır, yoxsa dünyada? Məsələn, bir ingilis sizi anlarmı?**

- Anlar. Çünki sənət, duyğu və insan beynəlmiləldir. Bu gün bütün dünya ölkələrinin filmlərinə, kinolarına baxın, hamısında eyni duyğulardan bəhs edilir. Qısqanclıq, ortaqlıq, arxadan vurma, eşq, nifrət, qorxu, insanın öz içindəki mübarizəsi və insanın insanla mübarizəsi... bir sözlə, həyatımızdakı qarşıdurmalar, konfliktlər dünyəvi olduğu üçün, hər irqə, hər kültürə oynadığın zaman bunu asanlıqla çatdıra bilərsən. Əlaqələr eynidir, amma üslublar fərqlidir. Məsələn, yaponlar daha böyük hərəkətlər edir, amerikalılar daha yumşaq, daha təbii, daha minimal jestlərlə fikirlərini çatdırırlar. Bu günə qədər türklərin oyunları bu ikisinin qarışığıydı. İndi daha çox Şərqdən qərbə doğru meyl edirik. Türk aktyor olaraq bu sualı mənə verdiyin üçün deyə bilərəm ki, bəli, real oyunçuluğu çox asanlıqla dünyaya çatdırmaq olar. Həm də mən uşaqlıqdan bəri o mədəniyyətlərin filmlərini, seriallarını izlədiyimə görə onların özlərinə xas mimika və jestlərini əzbər bilirəm. Hətta bəzən mənim hərəkətlərimi xaricilərə oxşadırlar.

**- Uğurun sizə xas sirri varmı? Varsa nələrdir?**

- Mənə görə üç xüsusi səbəbi var. Birincisi, nə edirsənsə et, əlindən gələnin ən yaxşısını elə. Mükəmməliyyətçi ol. İkincisi, fərqli ol, özünəməxsus ol, səndən əvvəli təkrarlama. Olunmayanı elə. Üçüncüsü də özünə xas xüsusiyyətləri işinə qat, sən bir dənəsən, insan olaraq, kimsə sənin ata anandan dünyaya gəlmədi, sənin yaşadıqlarını yaşamadı, sənin hiss etdiklərini hiss etmədi, sənin ağrılarını çəkmədi, dünyadakı bütün insanlardan fərqlisən, təksən, əvəzsizsən! Sənə aid olanı işinə qat, nəticə də mükəmməl olsun. Həmişə özünü inkişaf etdir, işində zirvədə olsan da, yaşın yetmişə də varsa öyrənməkdən əl çəkmə. Nigar, xoşbəxt olmaq üçün hüzurlu yaşa, kimsənin günahını alma, ədalətli ol, bax bu dəyərlərdir insanı ucaldan. Və bir də sənin ona aşiq olduğun qədər sənə aşiq olan, o xüsusi, səni tamamlayan parçanı tap. Bilirsənmi, birinə aşiq olmaq və aşiq olduğun şəxs tərəfindən sevilmək belə səni təkbaşına xoşbəxt eləməyə bəs edər. Sən artıq qalibsən. Eləcə də sağlam, yaxşı övladlar yetişdirmək əsasdır.

**Nigar İsfəndiyar**